**Əlavə 1.**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**
**“ 18 ” noyabr 2022-ci il tarixli**
**F-386 №-li əmrinə əlavə**

# “Biliyini paylaş” layihəsinin keçirilməsi üzrə təlimat

## 1. Layihənin məqsədi

Layihə ümumi təhsil məktəblərində interaktiv və əsaslandırılmış tədrisə yönəlmiş layihə əsaslı öyrənmənin dərs prosesində tətbiqi ilə bağlı aktual məsələyə diqqətin artırılması, bu istiqamətdə yaradıcı və yenilikçi müəllimlərin qabaqcıl təcrübələrinin öyrənilməsi məqsədilə təşkil olunur.

## 2. Layihənin keçirilmə mərhələləri

Layihə 2 mərhələdə 2022-ci ilin noyabr-dekabr aylarında təşkil olunur:

*I mərhələ* - Layihə əsaslı tədris barədə məlumatlı, layihə əsaslı öyrənməni dərs prosesində tətbiq etməyi bacaran yenilikçi və qabaqcıl müəllimlərin müəyyənləşdirilməsi;

Layihə əsaslı tədris barədə nəzəri və təcrübi biliklərinin digər müəllimlər arasında yayılması arzusunda olan müəllimlər 25 noyabr 2022-ci il tarixədək Təşkilat Komitəsi tərəfindən ümumi təhsil məktəblərinə göndərilmiş sorğuda iştirak edir.

II mərhələ - Layihənin Təşkilat Komitəsi tərəfindən elektron ünvanına təsdiq cavabı göndərilən müəllim “Biliyini paylaş” layihəsinin iştirakçısı olur və layihə çərçivəsində fəaliyyətlərə başlayır.

Həmin fəaliyyətlər aşağıdakılardır:

- İştirakçı müəllim işlədiyi məktəb, eləcə də yaxın məktəblərdə çalışan həmkarları ilə əməkdaşlıq quraraq öz komandasını yaradır. Komandanın tərkibi iştirakçı müəllimlə birlikdə 3 nəfərdən az olmamalıdır. Müəllim yaratdığı komandanın üzvlərinə mentorluq edir, layihə əsaslı öyrənmənin dərs prosesində tətbiqi ilə bağlı öz bilik və bacarıqlarını komanda üzvlərinə aşılayır, onlarla birgə fəaliyyətlər icra edir.

- Müəllim komanda üzvlərinə mövzu ilə bağlı maarifləndirici seminarlar təşkil edir. Seminarlar layihə əsaslı öyrənmənin dərs prosesində tətbiqi, istifadə olunan üsul və vasitələr, şagirdlərin nitq, ünsiyyət, dinləmə qabiliyyətinin, tədqiqatçılıq və yaradıcı yanaşma bacarığının inkişaf etdirilməsi, layihə əsaslı tədris zamanı xüsusi istedadı və bacarığı ilə fərqlənən şagirdlərin üzə çıxarılması istiqamətləri üzrə komanda üzvlərinin maarifləndirilməsinə yönəlməlidir.
- Layihə iştirakçısı olan müəllim layihə əsaslı öyrənməni dərs prosesində tətbiq edir və mentorluq etdiyi müəllimlərə əyani olaraq göstərir. Belə ki, komanda üzvü olan müəllimlər mentorunun dərslərində iştirak edirlər.
- İştirakçı müəllim komanda üzvləri olan digər müəllimlərin dərslərində iştirak edir, müəllimlərə tövsiyələrini verir və dəstək göstərir.

***Təşkilat Komitəsinə təqdim ediləcək məlumatlar:***

Layihənin Təşkilat Komitəsi tərəfindən elektron ünvanına təsdiq cavabı göndərilən müəllim layihənin iştirakçısı hesab olunur. İştirakçı müəllim layihənin Təşkilat Komitəsinə mentorluq edəcəyi komanda üzvləri haqqında məlumat, təşkil olunacaq seminar və dərslərin vaxtı barədə məlumatları təqdim edir.

Layihə iştirakçısı olan müəllim təlimatda qeyd olunan fəaliyyətlərin icrasını 26 dekabr 2022-ci il tarixədək bitirir və layihə çərçivəsində görülmüş işlər barədə hesabatı ils.layiheler@baku.edu.gov.az elektron ünvanına göndərir.

Layihədə fəal iştirak edən müəllimlər Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən təltif ediləcəkdir.